# AZƏRBAYCAN RESPUBLİKASI
# DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI

## Q Ə R A R

**№ 3**

**Bakı şəhəri** **17 oktyabr 2017-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Elmir Yaşar oğlu Rüstəmovun Qiymət statistikası şöbəsinin İstehsalçı qiymətləri statistikası sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün 2017-ci il oktyabrın 02-də keçirilən ümumi müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Bakı Şəhər Statistika İdarəsinin Xətai Rayon Statistika Şöbəsinin aparıcı məsləhətçisi Rüstəmov Elmir Dövlət Statistika Komitəsi aparatında Qiymət statistikası şöbəsinin İstehsalçı qiymətləri statistikası sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən 2017-ci il 25 avqust tarixində elan edilmiş ümumi müsahibədə iştirak etmişdir. Müsahibə 2017-ci il oktyabrın 02-də Dövlət Statistika Komitəsi aparatının Qiymət statistikası şöbəsinin müdiri Elman Qasımzadə, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Ruslan Mirzəliyev və müstəqil ekspert Xəqani Məmmədovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Elmir Rüstəmova müsahibə komissiyasının üzvlərindən E. Qasımzadə və X. Məmmədov 16, R.Mirzəliyev isə 15 bal vermiş və nəticədə iştirakçı 15.7 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1474 nömrəli Fərmanının 3.4.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 03.10.2017-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasında daxil olmuş şikayətlə əlaqədar müsahibə komissiyasının üzvlərinin rəyləri nəzərdən keçirilmişdir. Dövlət İmtahan Mərkəzinin nümayəndəsi R. Mirzəliyevin rəyinə əsasən namizədin müsahibə proqramı üzrə hazırlığı normaldır, lakin peşə hazırlığı, yəni zəruri xarici dil və kompüter bilikləri zəifdir. Müstəqil ekspert X. Məmmədovun rəyinə əsasən namizədin müsahibə proqramı üzrə hazırlıq səviyyəsi qənaətbəxşdir. Apellyasiya Şurasının iclası zamanı Dövlət Statistika Komitəsi aparatının Qiymət statistikası şöbəsinin müdiri E.Qasımzadə bildirmişdir ki, E.Rüstəmovun ixtisası üzrə biliklərini, peşə hazırlığını və Dövlət Statistika Komitəsi sistemindəki iş təcrübəsini (3 il 11 ay) nəzərə alaraq, onu Qiymət statistikası şöbəsinin İstehsalçı qiymətləri statistikası sektorunun baş məsləhətçi vəzifəsinə uyğun hesab etmək olar.

Dövlət İmtahan Mərkəzinin nümayəndəsi R.Mirzəliyevin də iştirakı ilə aparılmış müzakirələri, namizəd Elmir Yaşar oğlu Rüstəmovun ümumilikdə müsahibə proqramı üzrə hazırlığının qənaətbəxş olduğunu, eyni zamanda xarici dil və kompüter biliklərini artırmaq təşəbbüsünü və bununla bağlı əməli fəaliyyətini, habelə işlədiyi müddətdə qiymət statistikası üzrə ona tapşırılmış işləri yüksək səviyyədə icra etdiyini nəzərə alaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Rüstəmov Elmir Yaşar oğlunun 03 oktyabr 2017-ci il tarixli apelyasiya şikayəti təmin edilsin və Qiymət statistikası şöbəsinin İstehsalçı qiymətləri statistikası sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün 2017-ci il oktyabrın 02-də keçirilən daxili müsahibənin nəticəsi ləğv edilsin.

2. S. Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**

R.Suleymanov

V.Məmmədəlizadə

A.İbrahimova

S.Süleymanova

V.Alıyeva